# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması haqqında

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Peşə Təhsilinin İnkişafı Fondu" publik hüquqi şəxs yaradılsın.

2. "Peşə Təhsilinin İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Peşə Təhsilinin İnkişafı Fondunun (bundan sonra – Fond) işçilərinin say həddi 9 ştat vahidi müəyyən edilsin.

4. Fondun təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.1.4. Fondun yenidən təşkili və ləğv edilməsi;

4.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:

4.2.1. bu Qərarın 3-cü hissəsində və 4.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında"

Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi peşə təhsili müəssisələrinin gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını və onlar arasında ədalətli bölgüsünü təmin etmək üçün onların maliyyə vəziyyəti nəzərə alınmaqla əldə etdikləri büdcədənkənar vəsaitdən Peşə Təhsilinin İnkişafı Fonduna ayırmaların məbləğini müəyyən etsin.

6. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 18 avqust 2020-ci il

№ 299

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 18 avqust
tarixli 299 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Peşə Təhsilinin İnkişafı Fondunun

## NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Peşə Təhsilinin İnkişafı Fondu (bundan sonra - Fond) peşə təhsili sahəsində gəlir və xərclərin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını və Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyindəki peşə təhsili müəssisələri (bundan sonra – peşə təhsili müəssisələri) arasında ədalətli bölgüsünü təmin edən, peşə təhsili sahəsinin inkişafına dəstək göstərən publik hüquqi şəxsdir.

1.2. Fond Nazirliyin tabeliyində fəaliyyət göstərir.

1.3. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununu və Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, Nazirliyin normativ hüquqi aktlarını, Azərbaycan Respublikası təhsil nazirinin əmr və sərəncamlarını rəhbər tutur.

1.4. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Fond ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Fondun qanuna uyğun olaraq əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Fond məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.8. Fond Bakı şəhərində yerləşir.

## 2. Fondun fəaliyyət istiqamətləri

2.1. Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. peşə təhsili sahəsinin inkişafına maddi yardım göstərmək;

2.1.2. peşə təhsili sahəsində gəlirləri peşə təhsili müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsinə yönəltmək;

2.1.3. peşə təhsilinin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.4. peşə təhsilinin inkişafını təşviq edən mexanizmlərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.5. peşə təhsili müəssisələrində maliyyə vəziyyətini təhlil etmək;

2.1.6. peşə təhsili müəssisələrinin gəlirlərinin stimullaşdırılması üzrə təkliflər vermək;

2.1.7. peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin maddi və sosial rifahının yüksəldilməsi və müvafiq meyarlar əsasında mükafatlandırılması üzrə tədbirlər görmək;

2.1.8. peşəyönümü işlərinin aparılmasında peşə təhsili müəssisələrinə dəstək vermək.

## 3. Fondun vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Fondun vəzifələri aşağıdakılardır:

3.1.1. peşə təhsili sahəsində normativ hüquqi aktların, inkişaf konsepsiyalarının, məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. peşə təhsili müəssisələrinin maddi-texniki, tədris-metodiki bazasının möhkəmləndirilməsi tədbirlərini dəstəkləmək;

3.1.3. peşə təhsili sahəsində təhsilalanların və təhsilverənlərin fəaliyyətini stimullaşdırmaq;

3.1.4. peşə təhsili sahəsində gəlirlərin və xərclərin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını təmin etmək;

3.1.5. peşə təhsili müəssisələrinə qrant verilməsi məqsədilə onlar arasında müsabiqələr təşkil etmək;

3.1.6. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən və Fondun səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.7. Fondun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müvafiq tədbirlər görmək;

3.1.8. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Fondun əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.9. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.10. Fonda ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.12. Fondun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.13. Fondun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.14. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, peşə təhsili sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.15. peşə təhsili sahəsində peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.16. Fondun fəaliyyətinə dair illik hesabatı və Fondun illik iş planını Nazirliyə təqdim etmək;

3.1.17. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Fondun öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

3.2.1. peşə təhsili sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. peşə təhsili sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Nazirliyə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar (monitorinqlər) aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.6. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq və hesabat xarakterli analitik materiallar hazırlamaq;

3.2.8. müqavilə əsasında öz fəaliyyətinə ekspert və mütəxəssisləri cəlb etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar və digər tədbirlər keçirmək;

3.2.10. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi ilə bağlı Nazirliyə təkliflər vermək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.11. Nazirliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.12. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.13. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Fondun idarə olunması

4.1. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə üsullarını tətbiq edir.

4.2. Fondun idarəetmə orqanı İdarə Heyətidir.

4.3. İdarə Heyəti Fonda ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyəti 3 (üç) nəfərdən - Azərbaycan Respublikasının Təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən, onun müavinindən və digər bir üzvdən ibarətdir.

4.4. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

4.4.1. Fondun fəaliyyətini təşkil etmək;

4.4.2. Fondun inkişaf istiqamətlərinin müəyyən edilməsi ilə bağlı Nazirliyə təkliflər vermək, strateji məqsəd və planları müəyyən etmək və bu barədə Nazirliyə məlumat vermək;

4.4.3. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Fondun maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.4.4. Fondun strukturunun, işçilərinin say həddinin və əməkhaqlarının (o cümlədən əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq qaydalar nəzərə alınmaqla müəyyən edilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

4.4.5. Fondun maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.4.6. peşə təhsili müəssisələrinin gəlir və xərclərinin şəffaf, səmərəli və mərkəzləşdirilmiş qaydada idarə olunmasını və onlar arasında ədalətli bölgünü təmin etmək üçün peşə təhsili müəssisələrinin əldə etdikləri büdcədənkənar vəsaitdən Nazirliyin müəyyən etdiyi məbləğdə Fonda edilən ayırmalardan səmərəli istifadəni təmin etmək;

4.4.7. Fondun kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.4.8. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.4.9. Fondun daxili audit bölməsi yaradıldığı halda, həmin bölmənin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.4.10. Nazirliyin razılığı ilə Fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Fondun idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.4.11. Fondun fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.4.12. İdarə Heyətinin üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.4.13. Fondun fəaliyyətinə dair illik hesabatı təqdim etmək;

4.4.14. Nazirliyin razılığı ilə Fondun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.4.15. aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizinədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.4.16. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.4.17. Fondun inkişaf istiqamətlərinin, strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.4.18. bu Nizamnamənin 3.1.10-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.4.19. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.5. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq keçirilir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır. İdarə Heyətinin iclasında hər üzv bir səsə malikdir və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən İdarə Heyətinin digər üzvünün) səsi həlledici hesab edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

4.6. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına

toxunan məsələ daxil ediləndə, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir. İclasın gündəliyinə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.7. İdarə Heyətinin sədri:

4.7.1. Fondun cari fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir;

4.7.2. Fondun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.7.3. Fondun fəaliyyət istiqamətləri ilə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.4. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.7.5. öz təşəbbüsü ilə və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.6. öz təşəbbüsü ilə, həmçinin İdarə Heyətinin hər hansı digər üzvünün təklifi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.7. Fondun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.7.8. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Fondun Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.7.9. Fondun işçilərinin əməkhaqlarının, əməkhaqlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.7.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Fondun, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.7.11. Fondun əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.7.13. Fondun fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.14. Fondun fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.7.15. Fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.7.16. Fondda müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.8. İdarə Heyətinin sədri Fonda həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün cavabdehdir.

4.9. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyətinin üzvləri arasından sədrin müəyyən etdiyi digər şəxs icra edir.

4.10. İdarə Heyətinin üzvləri:

4.10.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.10.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.10.3. İdarə Heyətinin iclasında qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.10.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təklif verirlər;

4.10.5. İdarə Heyətinin qərarları, iclas protokolları və digər sənədləri ilə tanış olurlar.

4.11. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalıdırlar.

4.12. İdarə Heyətinin üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. Fondun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Fondun nizamnamə fondunun məbləği 1 000 000 (bir milyon) manatdır.

5.2. Fondun əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, peşə təhsili müəssisələrinin əldə etdiyi büdcədənkənar vəsaitdən ayırmalardan, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən yerli və xarici investisiyalardan və qanunla qadağan edilməyən digər mənbələrdən əldə edilən vəsaitdən formalaşır.

5.3. Fond öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Fond qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Fondun, onun idarə, filial və nümayəndəliklərinin, təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Fondun mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə müvafiq olaraq dövlət büdcəsinə və ya yerli büdcəyə köçürülə bilər.

5.6. Fondun məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə (tariflərə) aid deyildir.

## 6. Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Fondun fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti, Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Fondun fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

## 7. Fondda uçot və hesabat

7.1. Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Fond özünün idarə, filial və nümayəndəliklərinin, təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Fond öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 8. Fondun ləğvi və yenidən təşkili

8.1. Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.